# KÜRDƏMİR: beynəlxalq əlaqələrin coğrafiyası genişlənir

**Uzun illərdən bəri ancaq ölkə miqyasında istehlak edilən pambıq, taxıl və bostan bitkilərinin əkilib-becərilməsi ilə məşğul olan Kürdəmir rayonu bu gün, sözün həqiqi mənasında, beynəlxalq aləmdə tanınan etibarlı tərəfdaşa çevrilməkdədir. Bunun da əsas səbəbi dövlət müstəqilliyinin sadə insanlara bəxş etdiyi xoşbəxtlik, səadət, dövlətin qayğısıdırsa, digər səbəbi isə rayonun müasir tələblər səviyyəsində idarə olunması və mövcud potensialdan yaradıcılıqla istifadə edilməsidir. Məhz həmin səbəblər üzündən kürdəmirlilərin qazandığı uğurların miqyası artıq ölkə hüdudlarını aşır.**



2019-cu ilin əvvəlindən bəri Kürdəmirin bu istiqamətli uğurları barədə iki dəfə eşitdik. Birinci məlumatı fevralın 8-də, rayon icra hakimiyyəti başçısının yanındakı şuranın 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncağında eşitmişdik. Rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərovun hesabatında qeyd edilirdi ki, artıq kürdəmirlilər on ölkəyə 18 min 576 ton məhsul ixrac edilməsi kimi bir uğura nail olublar. Martın 2-də isə rayon icra hakimiyyətindən xəbər verdilər ki, Azərbaycanın Kürdəmir rayonu ilə Latviyanın Qrobinya şəhəri arasında əməkdaşlıq protokolu imzalanıb.

Bu sətirləri məhz həmin iki məlumat əsasında qurmaq istəyirik. Təbii ki, əvvəlcə fevralda eşitdiyimiz məlumat barədə söz açmaqla. Ceyhun Cəfərovun hesabatında qeyd edilirdi ki, rayonun sahibkarları və şirkətləri tərəfindən Türkiyəyə 355 ton pambıq mahlıcı, İrana 14 min 226 ton, İsrailə 39 ton, Gürcüstana 60 ton, Hindistana 28 ton biyan kökü, Rusiyaya 1235 ton, Ukraynaya 630 ton, Belarusa 92 ton, Gürcüstana 110 ton nar, Rusiyaya 62 ton nar şirəsi, Ukraynaya 114 ton, Rusiyaya 115 ton xurma, Belarusa və Qazaxıstana 996 ton kartof, İraqa 122 ton arpa, Gürcüstana 485 ton kəpək, Rusiyaya 18 ton pomidor, Ukraynaya 47 ton sarımsaq və Gürcüstana 22 ton yemiş ixrac edilib.

Fikrimizcə, bu fakt və rəqəmlər Prezident İlham Əliyevin ixracyönümlü məhsullar istehsalının artırılması, ölkə büdcəsinə maliyyə gətirəcək əməkdaşlığın genişləndirilməsi barədə verdiyi tövsiyə və tapşırıqların icrası nəticəsində mümkün olub. Rayon rəhbərliyinin həyata keçirdiyi çoxsaylı tədbirlər belə deməyə əsas verir ki, 2019-cu ildə həmin göstəricilər daha artıq olacaq.

İndi isə Latviyanın Qrobinya şəhəri ilə imzalanmış əməkdaşlıq protokolu barədə. Xatırladaq ki, Qrobinya şəhər statusunu hələ XVII əsrin sonlarında --1695-ci ildə qazanıb. Əhalinin seyrəkliyi və təbiətin zənginliyi Qrobinyanı xarici turistlərin daha çox üz tutduğu ünvana çevirib.

Ensiklopediyalarda göstərilir ki, Latviya ərazisindəki ən qədim yaşayış məskənlərindən olan Qrobinya hələ VII – XI əsrlərdə mühüm mədəniyyət mərkəzlərindən biri olub. Bu barədə Sankt-Peterburq muzeylərində dəyərli məlumatlar vardır. Buradakı arxeololoji tapıntılar kurş və skandinav vikinqlərinin həyat tərzi və qədim ənənələri barədə zəngin məlumat mənbəyidir.



Aldığımız məlumatda bildirilir ki, icra hakimiyyətinin başçısı Ceyhun Cəfərovun rəhbərlik etdiyi nümayəndə heyətinin Latviya səfərində qrupu Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının icraçı katibi Tofiq Həsənov müşayiət edib. Xatırladaq ki, rayon nümayəndə heyətinin tərkində Tofiq Həsənovun da iştirak etməsi təsadüfi deyildi. Çünki bu səfər Latviya Yerli Özünüidarəetmə Orqanları Assosiasiyası və Qrobinya bələdiyyəsinin dəvəti ilə reallaşırdı.

Bu səfərin bitməz-tükənməz təəssüratları barədə danışan Ceyhun Cəfərov qeyd etdi ki, respublikamızın müxtəlif şəhər və rayonlarının xarici ölkələrlə dostluq, əməkdaşlıq etməsi, qardaşlaşma barədə sənədlərin imzalanması ulu öndər Heydər Əliyevin müdrik siyasətində xüsusi yer tuturdu. Biz məmnunuq ki, Prezident İlham Əliyev də həmin siyasəti uğurla, həm də , böyük yaradıcılıqla davam etdirir. Bizim Latviyanın Qrobinya şəhəri ilə əməkdaşlıq barədə sənəd imzalamağımız da məhz dövlət siyasətinin tərkib hissəsidir. Əminəm ki, bu əməkdaşlıqdan dövlətimiz və xalqımız kimi, sadə kürdəmirlilər də səmərə görəcək, faydalanacaqlar.

Rayon rəhbəri qeyd etdi ki, səfərin ilk günündə nümayəndə heyətimiz və Azərbaycanın Latviyadakı səfiri Cavanşir Axundov adıçəkilən assosiasiyanın sədri Gints Kaminskis və Latviyanın ətraf mühitin qorunması və regional inkişaf naziri Yuri Pudse ilə görüşdü. Görüşdə Azərbaycanla Latviyanın yerli özünüidarəetmə orqanları arasında 10 ildir uğurlu əməkdaşlığın aparıldığı vurğulanıb və bu sahədə gələcək əməkdaşlığa dair geniş imkanların olduğu bildirildi. Fikir mübadiləsi zamanı birgə təcrübədən faydalanmaqla ölkələrimiz arasında müsbət dinamikaya malik münasibətlərin davam etdirilməsi və xüsusilə də turizm və əhali arasında təbliğat işinin aparılmasına dair razılığa gəldik.

Səfir Cavanşir Axundov son illərdə ölkəmiz tərəfindən aparılan və ikitərəfli münasibətlərin inkişafına yönəlmiş məqsədyönlü tədbirlər barədə məlumat verib. O, Avropada ilk Azərbaycan Ticarət evinin Latviyada açıldığını diqqətə çatdırıb, əmtəə dövriyyəsinin artırılmasının vacibliyini vurğulayıb və bu istiqamətdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin ölkələrimiz arasında olan əməkdaşlığın inkişafına geniş imkan yaratdığını bildirib.

Ölkələrimiz arasındakı münasibətlərin səviyyəsindən məmnunluq ifadə edən nazir Yuri Pudse bu münasibətlərin daha da inkişaf etdirilməsinin vacib olduğunu deyib. Sonra Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının icraçı katibi Tofiq Həsənov bu il yerli hakimiyyətlər və bələdiyyələr arasında əməkdaşlığın 10 ilinin tamam olduğunu qeyd edərək, bu cür tədbirlərin keçirilməsinin, birgə kitabın hazırlanmasının və digər layihələrin reallaşdırılmasının zəruriliyini vurğulayıb.

Nümayəndə heyətinin Qrobinya vilayətinə səfəri, eləcə də Qrobinya və Kürdəmir şəhərləri arasında qarşılıqlı əməkdaşlıq haqqında protokol imzalanması mərasimi daha yaddaqalan olub. Rayon rəhbəri qeyd etdi ki, həmin protokol özündə hər iki şəhər arasında təcrübə mübadiləsi, sosial-iqtisadi, turizm, mədəniyyət, biznesin inkişafı və digər sahələrdə əməkdaşlıq, sosial və ekoloji inkişaf proqramının reallaşmasına hazırlıq mərhələlərini ehtiva edir. Həmçinin il ərzində hər iki şəhərdə dostluq və əməkdaşlığı əks etdirən müxtəlif guşələrin yaradılması da nəzərdə tutulur.

RİH başçısı Ceyhun Cəfərov protokolun imzalanmasının əhəmiyyətindən danışıb və Azərbaycanda sosial-iqtisadi sahələrdə qazanılan uğurlar, bölgələrimizin sürətli inkişafı, yeni sosial layihələrin icra edilməsi barədə də məlumat verib. Rayon rəhbəri qeyd edib ki, cəmi 28 il dövlət müstəqilliyi olan Azərbaycan beynəlxalq aləmdə özünəməxsus nüfuz və etimad qazanıb. Son 15 ildə isə paytaxtımız Bakı dünya miqyaslı beynəlxalq təşkilatların öz tədbirlərini keçirdiyi ünvana çevrilib. Bizə olan inam və etimadın nəticəsidir ki, Azərbaycan dövləti qısa müstəqillik dövründə BMT Təhlükəsizlik Şurasına və Avropa Şurası Parlament Assambleyasının Nazirlər Şurasına sədrlik edib. Ölkəmizdə dərin islahatlar aparılır.

Sonra Qrobinya vilayətinin rəhbəri Ayvar Priedols çıxış edərək bildirib ki, əsas məqsəd qarşılıqlı əməkdaşlığın gücləndirilməsidir: "Bu sənədlə biz xalqlarımız arasındakı əlaqələri də inkişaf etdirməyi nəzərdə tutmuşuq. Buraya məktəblilərin hər iki ölkəyə qarşılıqlı səfərlərinin təşkili, sərgilər və digər oxşar tədbirlərin keçirilməsi daxildir. Bununla hər iki xalq bir-birini daha yaxından tanıyacaq." Natiq eləcə də, qeyd edib ki, rəhbərlik etdiyi vilayət Azərbaycanın iqtisadi uğurlarını öyrənməkdə maraqlı olmaqla yanaşı, həm də öz təcrübələrini bölüşmək niyyətindədir.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Qrobinya gimnaziyası, yerli çörəkbişirmə və süd-pendir məhsulları kombinatlarındakı iş şəraiti ilə tanış olub, həmçinin şəhərdəki idman mərkəzinə baxıblar.

Azərbaycan nümayəndə heyətinin marağına səbəb olan əsas məqamlardan biri isə Qrobinya meriyasının önündə Azərbaycan və Latviya bayraqlarının yanaşı dalğalanması olub.

*İlqar HƏSƏNOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*